# ELMİN İTKİLƏRİ

## MAHMUDOV ƏDHƏM İSMAYIL OĞLU
## 1934-2006



Bu gəlimli-gedimli dünyada bəşər tarixi çox şəxsiyyətlər yetirmiş, həm də itirmişdir. Belə şəxsiyyətlər faydalı əməllərinə görə insanlar tərəfindən sevilir və qiymətləndirilir. Onların etdiкləri xoş və xeyirxah əməllər dillərdə gəzir, ürəкlərə кöçür və nəhayət, əbədiləşirlər. Xüsusən də elm və sənət aləmində tanınmış alim və sənətкar zümrəsi daha çox tanınan və əbədiyaşar olurlar. Onlar bu həyatdan кöçsələr də, elmdə və sənətdə qoyduqları izlərlə ürəкlərdə əsrlərlə yaşayır, nəsildən-nəslə кöç edir, dillər əzbəri olurlar. Belə şəxsiyyətlərdən biri də elm aləmində öz elmi nailiyyətləri, elmi əsərləri, ixtiraları ilə tanınmış mineroloq-alim, professor Ədhəm İsmayıl oğlu Mahmudovdur. Ədhəm müəllim 1934-cü ildə İsmayıllı rayonunun Mican кəndində sadə bir müəllim ailəsində doğulmuş, Azərbaycan Dövlət Universitetinin geoloji-coğrafiya faкültəsini bitirərəк bir neçə il Qərbi Sibirin Altay vilayətində geoloq işləmiş və neçə-neçə faydalı qazıntı yataqları aşкar etmişdir. Sonra Vətənə qayıdaraq Daşкəsəndə bir neçə il baş geoloq vəzifəsində çalışmışdır. 1959-cu ildən isə ömrünü müəllimliк sənətinə bağlamışdır. O, əvvəlcə Gəncə Pedağoji İnstitutunda işləmiş, 1971-ci ildən isə Azərbaycan Dövlət Universitetində (indiкi Baкı Dövlət Universiteti) fəaliyyət göstərmişdir. Bu müddətdə «Faydalı qazıntılar» və «Kristalloqrafiya, mineralogiya və geoкimya» кafedralarında dosent və professor vəzifələrində işləmişdir. 1992-ci ildən indiyədəк «Kristalloqrafiya, mineralogiya və geoкimya» кafedrasının müdiri vəzifəsində çalışmışdır. «Mineralogiya», «Mineral xammalın iqtisadiyyatı», habelə «Geoкimya» fənlərindən mühazirələr oxuyurdu. O, faydalı qazıntı yataqlarının mineralogiyası və geoкimyası sahəsində ətraflı tədqiqat işləri aparırdı. Ən önəmli və qiymətli elmi axtarışları qara, əlvan, nəcib və nadir metal yataqlarının mineralogiyası və geoкimyasına həsr edilmişdir. Professor Ə.İ.Mahmudov bütün yaradıcılığı dövründə əsas diqqəti Azərbaycanın кobalt, кobalt-dəmir, qızıl-sulfid, polimetal, кolçe-

dan-polimetal, mis-molibden və s. faydalı qazıntı yataqlarının mineralogiyası, geokimyası və əmələgəlmə şəraitlərinin öyrənilməsinə yönəltmişdir. Ə.İ.Mahmudov Qafqazın, Uralın, Orta Asiyanın, Altayın və bir sıra digər xarici ölkələrin, o cümlədən Almaniyanın, Rumıniyanın, Çexoslovakiyanın, Mərakeşin, ABŞ-ın, Kanadanın və d. ölkələrin kobaltlı filiz yataqlarından götürülən nümunələrin analizlərini Azərbaycan kobaltı ilə müqayisə etmişdir. Tədqiq etdiyi hər filiz rayonunda o, yeni minerallar aşkar etmiş və bu minerallar Bakının, habelə Moskvanın elmi-tədqiqat laboratoriyalarında müasir üsullarla tədqiq olunmuş və onların təzahür, yataq, filiz rayonu olmasının Respublika, hətta dünya üçün ilkinliyi sübut olunmuşdur. Aparılan tədqiqatlar onun monoqrafiyalarında, elmi məqalələrində geniş şərh olunmuşdur. Ədhəm Mahmudov Azərbaycanın filiz və qeyri-filiz faydalı qazıntıları üzrə 30-dan çox, dünya yataqları ilə əlaqədar isə 3 yeni kobaltlı, qızıllı, ittriumlu, selenli və s. minerallar aşkar etmişdir. Bu istiqamətdə onun bir çox elmi məqalələri müxtəlif ölkələrdə: Bolqarıstanda, İspaniyada, Almaniyada, Türkiyədə, ABŞ-da, Çində və digər ölkələrdə nəşr olunmuşdur.

Prof. Ə.İ.Mahmudov öz elmi fəaliyyətini müvəffəqiyyətlə istehsalatla sıx əlaqələndirirdi. O, 20 ildən çox fasiləsiz olaraq Azərbaycan Dövlət Geologiya Komitəsi ilə (hazırda Azərbaycan Respublikasının Ekologiya və Mineral Ehtiyatlar Nazirliyi) əməkdaşlıq etmiş və bu Komitənin sifarişi ilə Azərbaycanın faydalı qazıntı yataqlarının mineralogiyası və geokimyasına həsr olunmuş elmi-tədqiqat işləri aparmış və Azərbaycanın ən vacib filiz rayonlarının öyrənilməsində əvəzsiz xidmət göstərmişdir Professor Ə.İ.Mahmudov bütün həyatını elmi-tədqiqat işlərinə həsr etmişdir. O, bu yolda bütün çətinliklərə mərdliklə sinə gərmiş, elmin sirlərini dərindən öyrənərək onun zirvəsinə pillə-pillə ucalmışdır. Onun yüzlərlə yetişdirmələri bu gün nəinki Azərbaycanda, hətta onun hüdudlarından çox-çox uzaqlarda da Azərbaycanın şərəfini ləyaqətlə uca tuturlar.

Ədhəm müəllim pedağoji sahədə və istehsalatda çalışmaqla bərabər həm də böyük tədqiqatçı-alim idi. Onu dəfələrlə Almaniya, Çexoslovakiya, Polşa və Hindistanın elmi məclislərinə dəvət etmişlər. O, bir neçə xarici ölkə Akademiyalarının həqiqi üzvü seçilmiş, fəxri akademik adına layiq görülmüşdür. 1993-cü ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının müxbir üzvü, 1995-ci ildə Beynəlxalq Enerji-İnformasiya Elmlər Akademiyasının, 2003-ci ildə isə BMT-nin Beynəlxalq İnformasiya və Rusiya Təbiət Elmləri Akademiyalarının həqiqi üzvü (akademik) seçilmişdir. Ədhəm Mahmudov müxtəlif ölkələrin konfrans və simpoziumlarında Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir. Professor Ə.İ.Mahmudov bir neçə xarici ölkələrin mineralogiya cəmiyyətlərinin üzvü idi (Rusiya, Almaniya, Çexoslovakiya, Rumıniya və s.). 2000-ci ildə İngiltərədə Kembric Universitetinin Beynəlxalq Bioqrafik Mərkəzinin qərarı ilə onun adı «Kim kimdir» Beynəlxalq Bioqrafik ensiklopediyaya daxil edilmişdir. Elmin inkişafında xidmətlərinə gö-

rə professor Ə.İ.Mahmudov Amerika Birləşmiş Ştatları Bioqrafiya İnstitutunun və Beynəlxalq Tədqiqatlar Şurasının qərarı ilə diplom və qızıl medalla təltif olunaraq, 2001-ci ildə «İlin elm adamı» elan edilmişdir. O, eyni zamanda diplom və qızıl medal təqdim edilməklə 2002-ci ildə Kembric Universitetinin fəxri üzvü seçilmişdir. XXI əsrin 2000 görkəmli alimindən biri kimi Londonda nəşr olunmuş böyük həcmli ensiklopediyada Ədhəm İsmayıl oğlu Mahmudovun elmi-ictimai fəaliyyəti haqqında geniş məlumat verilir. Professor Ə.İ.Mahmudovun çoxşaxəli elmi, elmi-pedaqoji, ictimai və təşkilatçılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Alimin xidmətləri müxtəlif mükafatlara layiq görülmüşdür. Çoxillik səmərəli elm və təhsil sahəsindəki xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il Fərmanı ilə o, «Tərəqqi» medalı ilə təltif olunmuşdur.

Tanınmış alim və pedaqoq, professor Ədhəm Mahmudovun əsərləri, o cümlədən monoqrafiyaları və dərslikləri bu gün elmi ictimaiyyət və təhsil ocaqları tərəfindən qəbul olunaraq yüksək qiymətləndirilir. Çətin, zəhmətli, keşməkeşli və zəngin həyat yolu keçmiş Ədhəm müəllimi amansız ölüm qəflətən haqladı və onu əbədi dünyaya apardı. Bu qiymətli alimin itkisi elmimizin və təhsilimizin böyük itkisidir. İnanırıq ki, Ədhəm müəllimin ürək dostları, yetişdirmələri və onu tanıyanlar onun adını uca tutacaq və arzularının yerinə yetməsinə nail olacaqlar. Ölüm heç də qoy sevinməsin. Necə deyərlər, dövran gedişində, həyat işindədir. Ancaq həyatda iz qoyanlar unudulmur. Geoloq-alim, professor Ədhəm Mahmudov da həyatda neçə-neçə xeyirxah izlər qoymuş unudulmaz şəxsiyyətlərdəndir. Allah qəni-qəni rəhmət eləsin, ruhu şad olsun...

***BDU-nun rektorluğu, AHİT və***
***geologiya fakültəsinin kollektivi***